# "Qərbi Azərbaycan - yurd yerimiz" mövzusunda elmi-praktiki konfrans keçirilib





Xaçmaz Rayon İcra Hakimiyyətinin və Qərbi Azərbaycan İcmasının birgə təşkilatçılığı ilə "Qərbi Azərbaycan - yurd yerimiz" mövzusunda elmi-praktiki konfrans keçirilib.

AZƏRTAC xəbər verir ki, konfrans iştirakçıları əvvəlcə Xaçmaz şəhərinin mərkəzində Ümummilli Lider Heydər Əliyevin abidəsi önünə gül dəstələri düzərək, xatirəsini ehtiramla yad ediblər.

Konfransda Qərbi Azərbaycan həqiqətlərindən bəhs edən videoçarx nümayiş olunub. Xaçmaz Rayon İcra Hakimiyyətinin başçısı Elnur Rzayev konfransın Qərbi Azərbaycan həqiqətlərinin təbliğində mühüm əhəmiyyət kəsb etdiyini vurğulayıb. Bildirib ki, Azərbaycan xalqının yaddaşında və milli şüurunda əzəli yurd yerimiz olan Qərbi Azərbaycan torpaqlarının xatirəsi hər zaman yaşayır. Tarixi-mədəni irsimiz olan Qərbi Azərbaycan torpaqları əzəli və əbədi dədə-baba yurdumuzdur.

Milli Məclis Sədrinin birinci müavini Əli Əhmədov qeyd edib ki, ermənilərin Cənubi Qafqaza köçündən sonra kütləvi deportasiyalar, soyqırımları soydaşlarımızı həmin yerlərdən didərgin salıb. 44 günlük Vətən müharibəsi nəticəsində düşmən tapdağından azad edilmiş Qarabağda məskunlaşma prosesinin başlanmasından sonra qarşıda duran ən mühüm məsələlərdən biri Qərbi Azərbaycan torpaqlarına da qayıdışı təmin etməkdir.

Qərbi Azərbaycan İcmasının İdarə Heyətinin sədri, Milli Məclisin deputatı Əziz Ələkbərli Ümummilli Lider Heydər Əliyevin Qərbi Azərbaycanla bağlı bu gün görülən işlərin əsasını qoymasından, öz el-obasından zorla çıxarılan soydaşlarımıza qayğısından və xüsusi diqqətindən danışıb. Bildirib ki, Ulu Öndərin siyasi kursunun layiqli davamçısı olan Prezident İlham Əliyev insan hüquqları məsələsi və sülhsevər missiya kimi Qərbi Azərbaycana qayıdışı əsas hədəflərdən biri olaraq müəyyənləşdirməklə, soydaşlarımızın qayıdış hüququnun təmin edilməsi istiqamətində dəstəyini göstərməkdədir.



Qərbi Azərbaycan İcmasının Ağsaqqallar Şurasının sədri, deputat Əhliman Əmiraslanov, icmanın Müşahidə şurasının sədri, Elm və Təhsil Nazirliyinin Riyaziyyat və Mexanika İnstitutunun baş direktoru Misir Mərdanov, Qadınlar Şurasının sədri, deputat Məlahət İbrahimqızı və İdarə Heyətinin üzvü, deputat Hikmət Məmmədov çıxışlarında bildiriblər ki, bu cür konfranslar Qərbi Azərbaycanın tarixi, mədəni irsi və azərbaycanlıların tarixi-etnik torpaqlarından kütləvi deportasiyası ilə bağlı ölkəmizdə həyata keçirilən tədbirlərin tərkib hissəsi kimi mühüm əhəmiyyət kəsb edir.

Azərbaycan.- 2025.- 6 iyun (№ 117).- S.4.